**Sahibkarlar üçün e-xidmətlərin miqyası genişləndirilir**

İrina Niderberger: «Rüsumların və digər ödənişlərin onlayn rejimdə ödənilməsinin təmini mühüm əhəmiyyət kəsb edir»

İqtisadi İnkişaf Nazirliyi (İİN) avqustun 6-dan etibarən sahibkarlar üçün verilən lisenziyaların, mənşə və keyfiyyət sertifikatlarının elektron qaydada həyata keçirilməsinə başlayıb. Sahibkarlar artıq bir neçə gündür ki, tələb olunan sənədləri elektron formada təqdim etməklə yanaşı, həmin xidmətlər üçün qanunvericiliklə müəyyən olunmuş bütün dövlət rüsumlarının və xidmət haqlarının ödənişini də onlayn rejimində həyata keçirirlər. Bu məqsədlə nazirliyin internet saytında yaradılmış elektron xidmətlər bölməsi vasitəsilə müxtəlif fəaliyyət növlərinə verilən lisenziya və sertifikatlar, bu xidmətlərin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı və müraciət edən şəxs tərəfindən doldurulmalı olan ərizə və digər sənədlərin elektron forması yerləşdirilib. Elektron xidmətlər bölməsində 7 istiqamətdə interaktiv, 9 istiqamət üzrə isə informativ elektron xidmətlər göstərilir. Bu isə sahibkarların həm lisenziyaların alınması, həm də cərimə və maliyyə sanksiyalarının onlayn rejimində elektron ödənilməsinin tam təmin olunması deməkdir.

İqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərovun sözlərinə görə, İİN daxili informasiya sistemini Mərkəzi Bank tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (KÖMİS) inteqrasiya edib. Artıq sahibkarların lisenziyaların alınmasına görə rüsumları Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin platformasında Hökumət Ödənişləri Portalı çərçivəsində ödəməsi mümkündür. Sahibkarların lisenziyaların alınmasına görə ödənişlərini daha geniş şəkildə təmin etmək və onlara geniş imkanlar yaratmaq məqsədilə Milli Ödəniş Sisteminin bütün ölkəni əhatə edən geniş infrastrukturundan istifadə olunacaq. Bu isə regionlarda fəaliyyətə başlayan sahibkarların vaxt və rahatlıq baxımından işini xeyli yüngülləşdirəcək.

N.Səfərovun qeyd etdiyinə görə, e-xidmətlərin spektri olduqca genişdir. Belə ki, vətəndaşların onlayn rejimdə qəbula yazılmaları, onların müraciətlərinin onlayn qəbulu və cavablandırılması, nazirliyin məsul işçiləri ilə canlı video əlaqəsi, sual-cavabı, dövlət proqramlarının icrası barədə informasiya sistemi tam elektron formada həyata keçirilir. Bundan başqa, sahibkarlar üçün uzaqdan onlayn rejimdə video-təlim sistemi, elektron ticarət portalı, vətəndaşların nazirliyin press-relizlərinə elektron abunə yazılışı kimi informasiya növlü elektron xidmətlərin göstərilməsi təşkil olunub.

Sahibkarlar üçün təmin olunan bu yeniliyi Beynəlxalq Maliyyə Korporasiyası (BMK) da təqdir edib. Korporasiyanın layihə rəhbəri İrina Niderberger Azərbaycan hökumətinin elektron xidmətlərin tətbiqi dairəsini genişləndirməsini qeyd edərək respublikamızı regionda yeni informasiya texnologiyalarından istifadə edən aparıcı ölkə kimi qiymətləndirib. Onun fikrincə, lisenziyalaşdırma sahibkarlıq sektorunda ən mühüm məsələlərdən biridir və bu sahədə yeniliklərin tətbiq olunması şəffaflığa, korrupsiyaya şərait yaradan halların aradan qaldırılmasına geniş zəmin yaradır. Məhz bu baxımdan, xüsusi razılıq tələb edən fəaliyyət sahələri üzrə rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin İKT üzrə bölgədə yüksək təcrübə qazandığını xatırladan xanım Niderberger, xüsusilə, sahibkarlıq subyektlərinin həm icazələr, həm də fəaliyyətlə bağlı ödənişləri elektron formada həyata keçirməsini biznes sahəsində şəffaflığın yaxşı göstəricisi hesab etdiyini bildirib. BMK-nın layihə rəhbərinin fikrincə, xüsusi razılıq tələb edən icazələrin alınması sistemi tamamilə elektronlaşacaq və dövlət-biznes münasibətlərinin minimuma enməsinə imkan verəcək. Elektron xidmətlərin tətbiqi biznes sektorunda səmərəliliyin yüksəlməsinə, sahibkarlar və icra strukturları arasında əlaqələrin keyfiyyətinin yaxşılaşmasına, operativliyin təmin olunmasına, şəffaflığın daha da artırılmasına müsbət təsir göstərəcək. Ümumiyyətlə, e-xidmətlərin tətbiqi ölkədə nağdsız hesablaşmaların bir istiqaməti olmaqla bu sahənin daha geniş inkişafına səbəb olacaq. İ.Niderberger Azərbaycan hökumətinin qabaqcıl texnologiyaların tətbiqi və elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin davamlı olacağını, MDB ölkələrinin bu sahədə respublikamızın mövcud təcrübəsindən faydalanmalı olduğunu da diqqətə çatdırıb.

Elbrus CƏFƏRLİ